Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın azərbaycanlılara qarşı soyqırımlar tarixi

**Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini işğal etməsi nəticəsində yüzlərlə kənd, qəsəbə, şəhər viran edilib, əhalisi şəhid olub, əsir və girov götürülüb, bir qismi isə məcburi köçkünə çevrilib.**

## IV yazı

Ermənistan və onun havadarları Xocalıda, Xocalıya qədər isə işğal etdikləri digər ərazilərimizdə xalqımıza qarşı qanlı cinayətlər törədib, kütləvi qırğın, soyqırım aktı həyata keçiriblər. Erməni şovinistlərinin, daşnaklarının Azərbaycan xalqına vurduğu yaralar hələ də qanayır. Ermənilərin tükürpədici qətllər törətdiyi Xocalının Meşəli kəndi onlar tərəfindən tamamilə viran edilib.

Azərbaycan Respublikasının Xocalı rayonunun kəndi olan Meşəlinin işğalı, əhalisinin şəhid edilməsi hadisəsi qanlı bir faciə kimi yaddaşlarda yaşayır.

1992-ci ildən Ermənistan silahlı qüvvələrinin işğalı altında oan Meşəli kəndi qədim bir türk kəndidir və digər ərazilərimiz kimi ermənilər bu kəndimizə də öz mənfur caynaqlarını uzadıblar.

Meşəli kəndinin adı türk dilində izah olunur və meşəlik yerdə yerləşdiyinə görə belə adlandırılıb. Xocalıdan əvvəl də ermənilər dinc əhaliyə qarşı amansız vəhşiliklər edib, kütləvi qırğınlar törədiblər. Xocavənd rayonunun Qaradağlı kəndində 1992-ci il fevralın 17-dən 18-nə keçən gecə 77 nəfər dinc kənd sakini qətlə yetirilib, 84 nəfər isə əsir götürülüb. Çəmənli, Malıbəyli, Kərkicahan, Meşəli kəndlərindəki erməni vəhşilikləri azərbaycanlılara qarşı törədilmiş cinayətlər sırasında amansızlığı ilə seçilir. Xocalı soyqırımına gedən yol bu kənddən və digər kəndlərimizdən başlayıb.

Erməni silahlı qüvvələri tərəfindən Malıbəyli və Quşçularda törədilən qətliamlar tarixə qanlı izlər salıb. 10 fevral - 12 fevral 1992-ci il tarixlərində ermənilər Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular, Yuxarı Quşçular kəndlərini də darmadağın edib, əhalisini öldürüblər. Bu kəndlərin əsas hədəf kimi seçilməsinə səbəb onların strateji baxımdan əlverişli mövqedə yerləşməsi idi.

Malıbəyli və Quşçular qətliamından danışan tarixçilər qeyd edirlər ki, Qarabağ müharibəsi zamanı 10 fevral - 12 fevral 1992-ci il tarixlərində erməni silahlı birləşmələri tərəfindən Şuşa rayonunun Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndlərinə eyni zamanda edilən hücum nəticəsində təxminən 50-yə yaxın dinc etnik azərbaycanlı qətlə yetirilib.

Hadisələrin gedişatından və qətliamdan danışan tarixçilər qeyd edirlər ki, Şuşa rayonunda əhali tərkibi azərbaycanlılardan ibarət olan Malıbəyli və Quşçular kəndləri (administrativ olaraq Aşağı Quşçular və Yuxarı Quşçular olaraq ayrılır) rayonun inzibati mərkəzi olan Şuşa şəhərinə yaxın dağlıq ərazidə - yaylaqlarda yerləşirdi. Kəndlərdə təxminən 4000 nəfərə yaxın əhali yaşayırdı. 1988-ci ildə Xocalıya olduğu kimi, bu kəndlərə də Ermənistandan zorla çıxarılmış, təxmini sayı 1500-ə yaxın köçkün yerləşmişdi. Qarabağ müharibəsi başlanan andan etibarən bu kəndlər erməni silahlı birləşmələrinin əsas hədəflərinə çevrilmişdilər. 1991-ci ilin oktyabr ayından etibarən Malıbəyli tamamilə mühasirədə idi.

1992-ci il fevralın 5-də kəndlərin üstündə uçan bir vertolyot kəndlilərə üzərində yaşayış yerlərini tərk etmək üçün onlara iki gün vaxt verildiyi yazılan bildirişlər payladı. Bölgə 1991-ci ildən mühasirədə olduğu üçün yeganə giriş-çıxış vertolyotla mümkün idi. Şuşaya uçan axırıncı vertolyot yanvarın 28-də ermənilər tərəfindən vuruldu.

Azərbaycan Silahlı Qüvvələrinin Xankəndi şəhərinin düşmən işğalından azad edilməsi üçün təşkil etdiyi hücumlara və yaxınlıqda yerləşən erməni kəndlərinə doğru edilən həmlələrə son qoymaq məqsədilə ermənilər zirehli texnika və ağır artilleriyadan istifadə etməklə Malıbəyli və Quşçular kəndlərinə hücum etdilər.

Fevralın 10-u gecə yarısı rus silahlılarının da yardımı ilə erməni silahlı birləşmələri Malıbəyliyə hücum etdilər. Kənddəki qadın və uşaqlar Quşçular kəndinə qaçdılar. Kənddəki evlər yandırıldı. Ümumilikdə isə hər iki kəndin sakinləri səhərə qədər düşmənlə vuruşdular. Yaxınlıqdakı Şuşa və Xocalı şəhərlərinə gedən yollar kəsildiyindən, kəndlərə ən yaxın yaşayış məskəni Ağdam rayonunun Abdal-Gülablı kəndi idi, lakin bu kəndə gedən yol ermənilərin məskunlaşdığı kəndlərdən keçirdi.

Tarixçilər qeyd edirlər ki, Ermənistanın təcavüzkar silahlı birləşmələrinin tərkibinə, həmçinin, Suriya, Livan, ABŞ və Fransadan gəlmiş könüllü ermənilər də qatılmışdılar. ATƏT-in sülhməramlı missiyasının Qarabağda iştirakı zamanı Malıbəyli, Aşağı Quşçular və Yuxarı Quşçular kəndləri erməni silahlı birləşmələri tərəfindən ələ keçirildi. Bununla da Şuşa və Xocalı şəhərləri tamamilə blokadaya alındı.

Tarixçilər bildirirlər ki, tarixdə bir əsrdə neçə dəfə erməni-azərbaycanlı müharibəsi olub və bu, XX əsrin sonlarına yaxın bir də təkrarlanıb, bu dəfə daha dəhşətli şəkildə.

Tarixçi Həyat Məhərrəmova qeyd edir ki, həmişə də erməni hiyləsi, erməni bicliyi özünü göstərib, özgə boşqabı yalayan, ikiüzlü, yaltıq, mənfur ermənilər ah-nalə qopardaraq haqqı nahaqqa boğdura biliblər. O vurğuladı ki, erməni terrorçuları 1988-1993-cü illərdə Azərbaycan vətəndaşlarına qarşı çoxlu terror əməli törədiblər. Onlardan biri də Meşəli, Malıbəyli, Quşçular faciəsidir. Həmçinin, qeyd etdi ki, erməni silahlı qüvvələri Qarabağda müharibəyə başlayarkən hədəf torpaqlarımızı silah gücünə ələ keçirmək olub. Azərbaycanın o vaxtkı rəhbərləri isə bunu münaqişə adlandırır, xalqı aldadır, torpaqların işğalını ictimaiyyətdən gizli saxlayırdılar...

H. Məhərrəmova bildirir ki, hələ 1991-ci ildə Meşəli kəndi ermənilərin hədəfində idi. "Ermənistan silahlı qüvvələri və onun muzdlu döyüşçüləri tərəfindən Meşəli kəndi böyük vəhşiliklə və amansızlıqla yer üzündən silindi. 1991-ci il dekabrın 23-də, səhər saat 7 radələrində erməni qüvvələri kəndi mühasirəyə almış və son evədək yandırmışlar. Çox böyük insan təlefatı olub. İlkin məlumata görə, ermənilər 30 nəfərdən artıq azərbaycanlını (qocaları, qadınları, uşaqları) qətlə yetirmiş, bir çoxunu isə vəhşicəsinə yandırmışlar. İtkin düşənlər olub. Kənd sakinlərindən 3 nəfərin evindən heç kəs çıxa bilməyib, 12 nəfər qadın, uşaq, qoca diri-diri yandırılıb.

Meşəli faciəsi bir daha göstərdi ki, ermənilər Dağlıq Qarabağı azərbaycanlılardan tam təmizləmək üçün Moskvadan və İrəvandan xüsusi göstəriş alıblar.

Meşəlidə genosid törədildi. İki gün ərzində vertolyotlar vasitəsilə günahsız adamların meyitləri daşınıb". O, Nəbilər kəndinin də ermənilər tərəfindən viran edildiyini qeyd etdi. Bildirdi ki, 1992-ci il yanvarın 18-də erməni silahlı dəstələri Şuşa rayonunun Nəbilər kəndinə hücum edərək kəndi oda qaladılar. Qeyri-bərabər döyüşdə ermənilər üstünlük qazanaraq kəndi xarabazarlığa çevirmişlər.

Kənd əhalisi Şuşaya pənah aparıb. Günəşli kəndinin də eyni faciə ilə üzləşdiyini qeyd edən tarixçi vurğuladı ki, 1992-ci il fevralın 5-də Xocavənd rayonunun Günəşli kəndi ermənilər tərəfindən işğal olunub. 1992-ci il fevralın 11-də ermənilər tərəfindən Malıbəyli və Quşçular kəndlərinin tamamilə yandırıldığını xatırladan ekspert bildirdi ki, hər iki kənddən 13 nəfər girov götürülüb, 15 nəfərdən artıq adam şəhid edilib.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**